Elmi Xəbərlər Jurnalı Nömrə 3, 2024 305-311
DOI:10.30546/gdu.3.2024

**UOT:81.**

# ONLAYN PLATFORMALARDA QRAFİK İXTİSARLARIN ROLU

***Quluzadə Səmra Faiq qızı***
***Sumqayıt Dövlət Universitetinin doktorantı***
**semra.guluzade@mail.ru**

**Xülasə:** *Bu məqalədə müasir dövrdə sosial media və digər onlayn platformalarda abreviaturalar və qrafik ixtisarların istifadəsi araşdırılır. Abreviaturlar sözlərin və terminlərin qısaldılması nəticəsində yaranan dil vahidləridir, qrafik ixtisarlar isə yalnız yazılı nitqdə istifadə edilən və leksikləşməyən ixtisar formalarıdır. Məqalədə bu qısaldılmış ifadələrin gündəlik ünsiyyətə necə təsir etdiyi, kommunikasiya sürətinin artması və gənclər arasında populyarlığı vurğulanır. Eyni zamanda, bu dil elementlərinin müasir mədəniyyətin tələblərinə necə uyğunlaşdığı və dil dinamikası üzərindəki təsirləri müzakirə edilir, qrafik ixtisarların dilin zənginliyinə, qrammatik qaydalara və mədəni kontekstə olan potensial təsirləri barədə söhbət açılır. Geniş yayılmış qısaltmaların istifadəsi, dilin normativ qaydalarının pozulmasına və ifadə qabiliyyətinin itirilməsinə səbəb ola bilər. Bununla yanaşı, qrafik ixtisarlar müasir ünsiyyət formalarının dinamikasını əks etdirir, dilin sadələşməsini və gənc nəsilin dildən ist*ifadədə yaradıcı yanaşmanı ortaya qoyur.

**Açar sözlər:** qrafik ixtisar, abreviatur, dil norması, ünsiyyət prosesi, sosial media, onlayn platforma
**Ключевые слова:** графическое сокращение, аббревиатура, языковая норма, процесс общения, социальные медиа, онлайн-платформа
**Keywords:** graphic abbreviation, abbreviation, language norm, communication process, social media, online platform

**Giriş.** Abreviatur bir sözün, ifadənin və ya terminlərin qısaldılması nəticəsində yaranan dil vahididir. Dilçilikdə, bu fenomen müxtəlif növlərə ayrılır (məsələn, söz birləşməsindəki komponentlərin (sözlərin) ilk hərflərindən ibarət olan qısaltmalardır. Məsələn, "Bakı Dövlət Universiteti" üçün "BDU". Bunlara akronimlər də deyilir). Qrafik ixtisarlar isə abreviaturlardan fərqli olaraq yalnız yazıda işlədilir, leksikləşə bilmir, qrafik səviyyədə mövcud olur. Məsələn, "salam" sözünün "slm" kimi, "və sair" ifadəsinin "və s." kimi, "və başqaları" ifadəsinin "və b." kimi yazılması buna nümunə ola bilər. Bu qısaltmalar, insanların gündəlik ünsiyyətinə intensivlik və rahatlıq gətirir. Bu daha çox onlayn platformalarda xüsusilə əlverişli hesab edilir. "Qrafik ixtisar yalnız yazılı nitqdə mövcuddur və yazılı nitqdə istifadə olunur, halbuki leksik qısaltma, zahirən ifadə olunmuş mənaya sahib olduğu üçün möhkəmlənmiş dil vahididir və həm yazılı, həm də şifahi nitqdə istifadə oluna bilər" [4, s.7].

Tədqiqatın mövzusu müasir dilin inkişafı və onlayn kommunikasiya mühitinin tələbləri baxımından son dərəcə aktualdır. Sosial media platformalarının və mobil telefonların yayılması, ünsiyyət formalarını və dil istifadəsini köklü şəkildə dəyişdirib. "Onlayn mühitdə istifadəçilər, tez və səmərəli kommunikasiya tələblərinə cavab vermək məqsədilə qısa və lakonik ifadələrə, yəni ixtisalara yönəlirlər. Bu, dilin dinamikasını sürətləndirir, yeni terminlərin və qısaldılmış formaların yaranmasına səbəb olur" [2, s.174].

İxtisarların geniş yayılması, bəzən dilin norma və qaydalarının pozulmasına və orijinal ifadələrin tam anlamının itirilməsinə yol aça bilər. Tədqqiatın mövzusu yalnız dilçilik üçün deyil, eyni zamanda sosial mədəni kontekstin anlaşılması üçün də xüsusi aktuallıq kəsb edir.

Bu tədqiqatın əsas məqsədi, müasir dövrdə kommunikasiya formalarının dəyişməsi ilə yaranan abreviaturalar və qrafik ixtisarların dilin dinamikası və inkişafı ilə bağlı rolunu araşdırmaqdır. Bu məqsədlə, məqalədə bir neçə əsas vəzifə müəyyən edilmişdir. Birincisi,

DOI:10.30546/gdu.3.2024

abreviaturaların və qrafik ixtisarların dilçilikdəki müxtəlif növlərini və onların sosial media platformalarında necə formalaşdığını araşdırmaqdır. Bu, gənclərin gündəlik ünsiyyətində bu fenomenlərin yayılma səbəblərini və onların dil dinamikasına təsirini anlamağa kömək edəcək. İkincisi, bu qısaldılmış formaların dilin zənginliyinə, qrammatik qaydalarına və normativ strukturuna olan təsirlərini müzakirə etməkdir. Beləliklə, dilin müasir ünsiyyət kontekstindəki rolu və əhəmiyyəti dərinləşdirilmiş şəkildə araşdırılacaq.

Bundan əlavə, məqalənin digər bir vəzifəsi, müasir kommunikasiya tələblərinə uyğun olaraq gənclərin dil istifadəsinin necə dəyişdiyini və bunun nəticəsində yeni terminlərin, abreviaturaların yaranmasını izləməkdir. Bu, dilin inkişafını, eyni zamanda sosial mədəniyyətin dinamikasını anlamaq üçün əhəmiyyətlidir. Məqalə, eyni zamanda, onlayn platformalarda istifadə olunan qrafik ixtisarların gündəlik kommunikasiya proseslərinə necə inteqrasiya edildiyini və bu fenomenin cəmiyyətin dilə olan münasibətinə təsirini də araşdırır. Nəticədə, bu vəzifələr dilin müasir dövrdəki inkişafını daha ətraflı anlamağa yönəlmişdir.

**Tədqiqatın əsas hissəsi.** Abreviatur və qrafik ixtisarların onlayn platformalarda daha çox istifadə edilməsinin birinci səbəbi kommunikasiya sürətinin artmasıdır. İnsanlar onlayn mühitdə tez və səmərəli ünsiyyət qurmağa çalışır, bu da uzun sözlərin və ifadələrin yerinə qısa və lakonik formaların qəbul edilməsini şərtləndirir. “Qənaət prinsipinin nəticəsi olaraq, insanın dil təfəkkürünün qarşısında daim yeni leksik vahidlərin seçilməsi və sistemə qəbul edilməsi məsələsi durur, bu da yaranan neologizmlər-qısaltmaların formalaşması ilə nəticələnir. Müxtəlif qısaltma növləri, məlumatın daha bir çərçivəyə sığışdırılması şəklində xidmət edir və müxtəlif sahələrdə (hərbi terminologiyada, elmi və texniki mətnlərdə, jargonlarda və adi söhbət dilində) istifadə olunur və bu, dünyanın əksər dillərində yayılmış dil universalisidir” [6, s.107].

Mobil telefonlarda və sosial media platformalarında məhdud yer səbəbindən, istifadəçilər daha az yer tutan və tez anlaşılabilən qısaldılmış ifadələrə üstünlük verirlər. Bu yanaşma, həm də zamanın idarə olunmasına kömək edir, çünki qısa mesajlar daha sürətli göndərilir.

İkinci səbəb isə, gənclər arasında qrafik ixtisarların və abreviaturların populyarlığıdır. Sosial medianın və müasir kommunikasiya mədəniyyətinin təsiri ilə, yeni terminlərin və qısaldılmış formaların yaradılması və istifadəsi sürətlə yayılmaqdadır. Gənclər, onlayn mühitdə daha çox interaktiv və dinamik ünsiyyət formaları axtarır, bu da onlara daha rahat görünən abreviaturlara və qrafik ixtisalara meyl etməyə səbəb olur. Beləliklə, bu kimi dil elementləri həm gündəlik ünsiyyətdəki rahatlıq, həm də müasir mədəniyyətin tələblərinə uyğunlaşma məqsədini güdür.

Gənclər arasında yaranan yeni terminlərin və abreviaturların populyarlığı, onların gündəlik ünsiyyətdə daha tez-tez istifadəsinə səbəb olur. Məsələn, “LOL” (həddən artıq gülməli (gülməkdən ölmək anlamında)) və “BRB” (bir azdan geri qayıdacam) kimi beynəlxalq abreviatralar, Azərbaycan dilində də istifadə olunmağa başlayıb.

Son illərdə onlayn platformalarda azərbaycan dili mənşəli qrafik ixtisarların istifadəsi artmışdır. Bu ixtisarlar, sosial media, mesajlaşma tətbiqləri və digər onlayn mühitlərdə gündəlik ünsiyyətin bir hissəsi halına gəlmişdir. Məsələn, “salam” sözünün “slm” kimi yazılması, istifadəçilər arasında sürətli və rahat ünsiyyət üçün geniş yayılmışdır. Bu cür ixtisarlar, dilin dinamikliyini və müasir ünsiyyət tələblərinə uyğunlaşma qabiliyyətini göstərir.

Dilçilik ədəbiyyatında qrafik ixtisarların xüsusi növü kimi fərqləndirilən bu struktur tipləri “kontraktur” adlanır. Qeyd edilir ki, “kontrakturlar, saitlərin və bəzi samitlərin ixtisar edilməsi dilə samitlərin əsasında yaranır. Bu qrup qısaltmalar, yalnız samit səsləri ifadə edən işarələrdən ibarətdir. İngilis dilində konsonantogramın formalaşması, samitlərin informasiya

DOI:10.30546/gdu.3.2024

yükünün saitlərdən daha yüksək olması ilə bağlıdır... kontrakturlar aşağıdakı şəkildə tərtib oluna bilər:

a) sözlər: pls < please; msg < message;

b) söz birləşmələri (digər qrafik qısaldılma növləri ilə, məsələn, inisial və ya heca qısaldılması ilə qarışma baş verdiyi üçün kifayət qədər nadir tip kontrakturlar hesab edilir): LHB < Lost Heartbeat; BRGDS < Best Regards (inisial qısaltma və kontraktura)" [3, s.35].

S.A.Mironenko onlayn platformalardakı oyun seqmentləri əsasında istifadəçilərin leksikonunda yer alan ixtisarları təhlil edərkən belə bir qənaətə gəlir ki, "onlayn platformalarda, xüsusən də oyun mühitlərində, ixtisarlar kommunikasiya prosesini asanlaşdırır. Onlar həmçinin spesifik terminlərin olmaması səbəbindən lazımi ifadələri doldurur və oyunçular arasında emosional və ifadəedici bir dil yaradır. Bu ixtisarlar, oyunçuların birlikdə effektiv ünsiyyət qurmasını təmin edir" [7, s.63].

İ.A.Hüseynova öz elmi araşdırmasında bu ixtisar növünü "kötüklər" (və ya kök ixtisar) adlandıraraq, onların qrafik ixtisarların ən qədim növü kimi qələmə veir. "Burada əsas prinsip sözün bir hissəsinin buraxılması və qalığının qorunmasıdır" [1, s.86].

L.V.Karatayevanın fikrinə görə, "belə ixtisarların spesifik xüsusiyyəti, onların şifahi nitqdə istifadə edilmə imkanıdır, eləcə də bu ixtisarlar normativlik meyarı üzrə konotativ məna daşımır" [5, s.154]. Başqa sözlə, bu ixtisarlar daha rəsmi olmayan və gündəlik yazılı ünsiyyətdə istifadə edilən dil formalarıdır.

Söz əsaslı qrafik ixtisarlardan (kontraktur) olan "h" və "y" "hə" (bəli) və "yox" (xeyir) kimi ifadələrin qısaldılması kimi çox rast gəlinən qrafik ixtisarlardandır. Bu cür qısaldılmış formalar, yazılı ünsiyyətdə daha az yer tutmaqla yanaşı, mesajların daha sürətli göndərilməsi məqsədilə istifadə edilir. İstifadəçilər, gündəlik ünsiyyətlərində bu kimi qısaltmalardan geniş şəkildə faydalanaraq, zaman və məkan məhdudiyyətlərini aşmağa çalışırlar.

Sosial media platformalarında isə, artıq yuxarıda da qeyd etdiyimiz kimi, "lol" (gülməkdən qırılmaq) və "brb" (bir azdan geri qayıdacam) kimi beynəlxalq abreviaturlara bənzər, Azərbaycan dilindəki qrafik ixtisarlar da yaranır. Məsələn, "çox sağ ol" ifadəsinin "çs" və ya "təşəkkür edirəm // təşəkkürlər" ifadəsinin "twk" kimi qısaldılması, istifadəçilər arasında gənclik mədəniyyətinin bir hissəsi olaraq ortaya çıxır. Bu ixtisarlar, eyni zamanda, gənc nəsilin müasir dillə bağlı yaradıcılığını və dilin müasir ünsiyyət tələblərinə uyğunlaşma qabiliyyətini nümayiş etdirir.

Onlayn platformalarda qrafik ixtisarların yaranması, dilin dinamikasını və mədəniyyətin inkişafını göstərir. Bu cür ixtisarların istifadəsi, dilin həm sadələşməsini, həm də gənc nəsilin ünsiyyət formalarını yeni şəraitə uyğunlaşdırma bacarığını əks etdirir. Azərbaycan dilindəki qrafik ixtisarların populyarlığı, dilin sosial şəbəkələrdə və rəqəmsal mühitlərdə necə evrim keçirdiyini nümayiş etdirir və bu hadisənin gələcəkdə də davam edəcəyi gözlənilir.

Onlayn platformalarda qrafik ixtisarların xüsusi növü olan siqllərə çox təsadüf edilir. Siqllar, çox uzun tərkiblərin ilk hərflərinin birləşdirilməsi yolu ilə yaradılan qısaldılmış sözlərdir. Qeyd edək ki, ayrı-ayrı hərflərdən, ən çox samitlərdən formalaşdıqda, siqllar öz təbiətinə görə dilə xarici, çətin tələffüz olunan və başa düşülmədə çətinlik yaradan bir element halına gəlir. Hətta bu fenomenin qrafik forması belə oxucunun diqqətini cəlb edir, çünki siqllar, adətən, böyük hərflərlə yazılır: LOL, BRB və s.

Onlayn platformalarda istifadə edilən ünsiyyət dilinə müasir dönəmdə ingilis dilinin dərin nüfuzunu nəzərə aldıqda burada bir çox "neqativ" məsələlərə də toxunmaq lazım gəlir. Belə ki, virtual məkanın olmadığı dönəmlərdə yaranan qrafik ixtisarlar, elmi cəhətdən əsaslandırılmış və vahid qəbul edilmiş prinsiplər əsasında yaradılaraq işlədilirdisə, bu gün onlayn platformalarda istifadə edilən qrafik ixtisarlar haqqında bunu demək olmur. Çünki onlayn platformalarda yaranması, orijinal dilin zənginliyini və ifadə gücünü müəyyən mənada

DOI:10.30546/gdu.3.2024

azaldır. İstifadəçilər, qısa və lakonik formalarla ünsiyyət qurduqda, dilin müxtəlif ifadə vasitələrinin və sinonimlərin istifadəsini laqeyd yanaşmağa meylli olurlar. Bu, dilin zənginliyinin itirilməsinə səbəb ola bilər, çünki istifadəçilər daha az fərqli söz və ifadə ilə fikirlərini çatdırmağa çalışır, bu da dilin ifadə qabiliyyətini daraldır.

Bundan əlavə, qrafik ixtisarların geniş yayılması, dilin düzgünlüyünü və qrammatik qaydaların pozulmasını təşviq edə bilər. Məsələn, "h" və "y" kimi qısaltmaların istifadəsi, cümlələrin düzgün qurulmasına mane ola bilər. Bu vəziyyət, gənc nəsil arasında dilin standartlarına əməl edilməməsinə və dilin qrammatik strukturunun zəifləməsinə səbəb ola bilər. Beləliklə, dilin formalaşması və inkişafı üçün əhəmiyyətli olan qrammatik qaydaların göz ardı edilməsi, dilin gələcəkdəki inkişafına zərər verə bilər.

Qrafik ixtisarların geniş yayılması, mədəniyyətin və dilin fərqli aspektlərini anlamaqda çətinlik yarada bilər. Qısaldılmış formalar, bəzən orijinal ifadələrin və kontekstlərin tam anlamını itirir. Bu, dilin istifadəçiləri arasında yanlış anlaşılmalara, mədəni və sosial kontekstlərin göz ardı edilməsinə səbəb ola bilər. Nəticədə, dilin yalnız kommunikativ funksiya yerinə yetirməkdən daha çox, mədəni kimliyin və sosial dəyərlərin ifadəsi olduğunu unutmaq riski meydana gəlir. Məsələn, "təşəkkür" söyləmi əvəzinə işlədilən "twk" qrafik ixtisarında "w" hərfinin istifadəsi, Azərbaycan dilinin fonetik və qrammatik normalarına ziddir. Azərbaycan dilində "w" hərfi yoxdur, bu da dilin strukturuna uyğun gəlmir. Beləliklə, bu cür qrafik ixtisarların istifadəsi, dil normalarının pozulmasına gətirib çıxara bilər. İstifadəçilər, daha az yer tutan və sürətli ünsiyyət imkanı verən ifadələri axtararkən, bəzən dilin orijinal formalarını və normativ qaydalarını göz ardı edirlər.

Bu vəziyyət, dilin zənginliyinin və ifadə qabiliyyətinin itirilməsinə səbəb ola bilər. Qrafik ixtisarlar, dilin orijinal qrammatik və fonetik strukturunu pozduqda, bu, dilin inkişafına və müasir dövrdəki istifadəsinə mənfi təsir göstərə bilər. Nəticə etibarilə, "twk" qrafik ixtisarı, istifadəçilərin ünsiyyət tərzini asanlaşdırsa da, eyni zamanda dilin təmizliyini və normativ qaydalarını qorumaq baxımından narahatlıq doğurur. Bu, dilin yalnız gündəlik ünsiyyət üçün deyil, eyni zamanda mədəniyyətin və identikliyin ifadəsi üçün də əhəmiyyətli olduğunu xatırladır.

Facebook platformasında Azərbaycan dilində geniş yayılmış qrafik ixtisarlar, istifadəçilərin gündəlik ünsiyyətində sürət və rahatlıq təmin edir. Bu platformada paylaşımlara yazılmış şərhlərə nəzər saldıqda, azərbaycandilli virtual məkanda istifadə edilən qrafik ixtisarların daha çox ingilis dilindən alındığını müşahidə edə bilərik. Məsələn, dilimizdə təəccüb, heyrət mənasında işlədilən kifayət qədər təqlidi söz və ifadənin olmasına rəğmən, onlayn platformalarda "wow" qrafik ixtisarından istifadə edilir. Məslən, "Wow, təbriklər!" (Facebook); "Wow, qiymət z.o." (Facebook).

Bundan əlavə bu sosial şəbəkə üzərindən apardığımız müşahidələr zamanı ölçü mənasına (üçün üçə), 4mX2m (dörd mtrənin iki metrəyə) kimi qrafik ixtisarlara da rast gəlinir. Məsələn, "Salam, 3x3 neçəyə başa gəlir?" (Facebook) və s.

Son illər onlayn platformalarda "qarşı // əksinə" mənasında "vs" qrafik ixtisarının geniş şəkildə istifadə edilməsinin də müşahidə edirik. Məsələn, Gürcüstan gömrüyü ***VS*** Azərbaycan gömrüyü (Maşın Bazarı TV) və s.

Son illər həm elmi, siyasi, həm də ictimai onlayn platformalarda rast gəldiyimiz "VS" qrafik ixtisarı barədə bir qədər ətraflı məlumat verməyi lazım bilirik. "VS" ifadəsi, ingilis dilində "versus" sözünün qısaldılmasıdır və "qarşı" ya da "əleyhinə" mənasını ifadə edir. Bu termin, adətən, iki şeyin müqayisəsini və ya bir-birinə qarşı duran tərəflərin mübahisəsini göstərmək üçün istifadə olunur. "Gürcüstan gömrüyü VS Azərbaycan gömrüyü" ifadəsində, bu termin, iki gömrük sisteminin, tətbiq olunan qaydaların, prosedurların, şəraitin və ya digər müvafiq aspektlərin müqayisəsini vurğulamaq məqsədini güdür. Beləliklə, "VS" qrafik

DOI:10.30546/gdu.3.2024

ixtisarı iki tərəf arasındakı fərqi, üstünlüyü və ya seçim məsələsini ifadə etmək üçün geniş istifadə olunan bir formadır.

Etimologiya baxımından, "versus" sözü, latın dilində "çevrilmiş" və ya "qarşı" mənasına gələn "vertere" felindən əmələ gəlib. İlkin mənbələrə görə, bu termin hüquqi mübahisələrdə, iddiaların və tərəflərin müqayisə edildiyi vəziyyətlərdə istifadə olunurdu. Zamanla, "versus" sözü daha geniş kontekstlərdə, xüsusən idman, mübahisələr və akademik diskussiyalarda iki tərəfin müqayisəsini ifadə etmək üçün qəbul edildi.

İnkişaf etmiş müasir dövrdə, "VS" ifadəsi geniş yayılmağa başlayıb, həm mətbuatda, həm də gündəlik dil istifadəsində yer alır. İdman yarışlarında, məsələn, "Real Madrid VS Barcelona" kimi ifadələrdə, iki komandanın bir-birinə qarşı mübarizəsini göstərmək üçün istifadə edilir. Eyni zamanda, elmi və akademik kontekstdə də, məsələn, "A nəzəriyyəsi VS B nəzəriyyəsi" kimi ifadələrlə iki fərqli yanaşmanın müqayisəsini əks etdirir. Bu termin, həm də geniş müzakirələrə və analitik düşüncəyə əsaslanan bir diskussiyaya giriş imkanı yaradır "VS" ifadəsi, onlayn platformalarda, əsasən müqayisə, mübahisə və ya seçim məqsədilə geniş istifadə olunur. İstifadəçilər, bu qrafik ixtisarı iki fərqli fikir, məhsul, şəxs və ya konsepsiya arasında müqayisə aparmaq üçün tətbiq edirlər. Məsələn, "Apple VS Samsung" kimi ifadələr, bu iki brendin məhsulları, xüsusiyyətləri və üstünlükləri arasında müzakirələr aparmağa imkan tanıyır. Eyni zamanda, "VS" qrafik ixtisarı mübahisəli məsələlərin, məsələn, siyasi və sosial məsələlərin müzakirəsi zamanı fərqli baxışların müqayisə edilməsinə də xidmət edir.

Bundan əlavə, "VS" ifadəsi, müxtəlif sahələrdə rəqabət və seçim məsələlərini vurğulamaq məqsədilə də istifadə edilir. İdman, elm və akademik müzakirələrdə iki tərəfin müsbət və mənfi tərəflərinin müqayisəsi üçün geniş yer alır. Beləliklə, "VS" qrafik ixtisarı, istifadəçilərə daha qısa və effektiv formada fikirlərini ifadə etmək və müzakirələrini təşkil etmək imkanı yaradır.

Onlayn platformalarda qrafik ixtisarların siqli adlanan növündən geniş istifadə edildiyi müşahidə edilir. Siqli dilçilikdə bir sözün, ifadənin və ya cümlənin, danışıq və ya yazı kontekstindəki hər hansı bir hissəsinin vurğulanması və ya ön plana çıxarılması üçün istifadə olunan bir termindir. Siqli, bir fikirin, duyğunun və ya anlayışın daha güclü ifadə olunmasına kömək edir. Siqlinin məqsədi, dinləyici və ya oxucu tərəfindən daha asan başa düşülən, yadda qalan və ya diqqəti cəlb edən ifadələrin yaradılmasıdır. Bu,  reklam mətni tərtibatından, elmi yazılarda tətbiq oluna bilər. Siqli, dilin estetik və emosional təsirini artıraraq, ünsiyyətin daha təsirli və anlamlı olmasına şərait yaradır.

N.G.Asmus virtual kommunikasiyalarda istifadə edilən qrafik ixtisarlarla bağlı apardığı elmi araşdırma zamanı belə bir qənaətə gəlir ki, virtual kommunikasiyanın özəllikləri səbəbindən onlayn platformalarda qrafik istidarlar leksik ixtisarlarla müqayisədə yüksək işlənmə tezliyinə malikdir. "Araşdırdığımız nümunələrin 90%-i qrafik ixtisarlar təşkil edir" [3, s.37]. O, təhlillər əsasında onlayn platformalarda istifadə edilən qrafik ixtisarların 4 tipini qeyd edir: siqli, suspensiyalar, kontrakturlar, fonoideoqramlar.

Lakin azərbaycandilli onlayn platformalarda apardığımız müşahidələr bizə belə deməyə əsas verir ki, buradakı istifadəçilərin kommunikativ yazışmalarında fonoideoqramlardan da istifadə edilir. Bu daha çox rəqəmlər əsasında yaradılmış brend adları və s. ilə bağlıdır və daha çox reklam seqmentində geniş istifadə edilir. Məsələn, "Mütləq ***1kart***lamı ödəmə olmalıdır?" (Facebook); "Aldığımız Volkswagen ID ***6Lar*** Yükləndi" (Car Bids Baku); "..., bülletenə çıxarkən ***h1*** kəsilirmi?" (Təhsil Forumu) və s.

Ümumiyyətlə, qeyd edilməlidir ki, onlayn platformalarda qrafik ixtisarlar bir sıra funksiyaları yerinə yetirir: nominativ, ekspressiv-emosional, interaktiv, yaradıcı, evfemistik və s. Bununla da söz yaradıcılığının müasir formalarından olan virtual qrafik ixtisarlar (bir çoxları bu qəbil ixtisarları söz yaradıcılığı elementi hesab etmir) müasir insanın dil aləminin

DOI:10.30546/gdu.3.2024

obrazını təşkil etməkdə mühüm rol oynadığını ortaya qoyur. Müasir insan cəmiyyətin həyatında fəal iştirak edir, ünsiyyət mühitini, dil məkanının qurulmasında özünəməxsus xüsusiyyətləri müəyyən edir.

Dil vahidlərinin ixtisarı internet mühitində mətnin təşkilindəki əsas prinsiplərdən biridir. "Fonetik yazı" adlandırılan [3, s.40] kompakt informasiya ötürmə üsulu, fikrin daha sərbəst ifadə olunmasına və ünsiyyətin qeyri-rəsmi xarakteri almasına kömək edir. Sözlərin və söz birləşmələrinin bu cür qeyri-standart istifadəsi söz yaradıcılığında yeni mərhələ kimi özünü göstərir.

**Nəticə.** Yekunda nəticə olaraq, vurğulamaq lazımdır ki, qısaldılmış formaların geniş yayılması, insanların onlayn mühitdə sürətli və səmərəli ünsiyyət tələblərinə cavab verdiyini göstərir. Gənclər arasında bu fenomenin populyarlığı, onların daha interaktiv və dinamik ünsiyyət formalarını axtarması ilə bağlıdır. Bunun nəticəsində, qrafik ixtisarlar, gündəlik ünsiyyətdə daha tez-tez istifadə olunan terminlərə çevrilir, məsələn, "LOL" və "BRB" kimi beynəlxalq abreviaturalar Azərbaycan dilində də qəbul edilir.

Qrafik ixtisarların geniş yayılması, orijinal ifadələrin və mədəni kontekstlərin tam anlamını itirməsinə səbəb ola bilər. Bu, dilin yalnız kommunikativ funksiyasını yerinə yetirməkdən daha çox mədəni kimliyin və sosial dəyərlərin ifadəsi olduğunu unutmaq riskini artırır. Nəticədə, abreviaturaların və qrafik ixtisarların istifadəsi dilin zənginliyini və ifadə qabiliyyətini azaldır, eyni zamanda dilin normativ qaydalarını pozur.

Onlayn platformalara yanısyan dildə qənaət prinsipinin tətbiqi qrafik ixtisarların və eləcə də leksik ixtisarların yeni-yeni modellərinin formalaşmasına səbəb ola bilər.

### *Ədəbiyyat*

1. Gusejnova, I.A. Ueber die Besonderheiten der modernen Werbetexte // Das Wort: Germanistisches Jahrbuch 2000/2001; hg. v. Vallstedt. Moskau: DAAD, 2001. S. 85-91.
2. Habibova K. Virtual discourse as a communicative requirement of the modern era //Ad Alta. Journal of Interdisciplinary research. – 2023. – T. 13. – №. 1. – C. 173-176.
3. Асмус Н.Г. Особенности функционирования сокращений в виртуальном дискурсе (на примере социальной сети Твиттер) / Н. Г. Асмус, Н. Д. Полетаева // Челябинский гуманитарий. – 2021. – № 2(55). – С. 34-42.
4. Баринова С.О. Классификация сокращений в языке Интернета (на материале английского языка) // Известия Российского государственного педагогического университета им. А. И. Герцена: сборник статей. — 2007. — Т. 12. — №33. — С. 24-27.
5. Каратаева Л.В. Сопоставительный анализ рекламной лексики в текстах русской и немецкой прессы: функционально-семантический и словообразовательный аспект: дис. ... канд. филол. наук. Майкоп, 2003. 193 с.
6. Ковригина А.И. Статус инициальных аббревиатур в испанском, английском и русском языках // Вестник Московского университета. Серия 19: Лингвистика и межкультурная коммуникация. – 2010. – № 4. – С. 107-112.
7. Мироненко, С.А. Аббревиация английских заимствований в немецком жаргоне компьютерных игроков // Вестник Адыгейского государственного университета. Серия 2: Филология и искусствоведение. – 2015. – № 1(152). – С. 61-65.

DOI:10.30546/gdu.3.2024

**РОЛЬ ГРАФИЧЕСКИХ СОКРАЩЕНИЙ НА ОНЛАЙН-ПЛАТФОРМАХ**

***Гулузаде Семра Фаиговна***

***Резюме***

В данной статье рассматривается использование аббревиатур и графических сокращений в современном обществе на социальных медиа и других онлайн-платформах. Аббревиатуры представляют собой языковые единицы, возникающие в результате сокращения слов и терминов, тогда как графические сокращения — это формы сокращений, которые используются только в письменной речи и не могут быть лексикализированы. В статье подчеркивается, как эти сокращенные выражения влияют на повседневное общение, а также увеличивается скорость коммуникации и их популярность среди молодежи. Также обсуждается, как эти языковые элементы адаптируются к требованиям современной культуры и их влияние на динамику языка, рассматриваются потенциальные воздействия графических сокращений на богатство языка, грамматические нормы и культурный контекст. Широкое использование сокращений может привести к нарушению языковых норм и потере выразительности. Кроме того, графические сокращения отражают динамику современных форм общения, демонстрируя упрощение языка и креативный подход молодежи к использованию языка.

**THE ROLE OF GRAPHIC ABBREVIATIONS ON ONLINE PLATFORMS**

***Guluzade Samra Faig***

***Summary***

This article examines the use of abbreviations and graphic abbreviations in contemporary society on social media and other online platforms. Abbreviations are language units that arise from the shortening of words and terms, while graphic abbreviations are forms of shortening that are used only in written speech and cannot be lexicalized. The article highlights how these shortened expressions affect everyday communication, as well as the increased speed of communication and their popularity among young people. It also discusses how these language elements adapt to the demands of modern culture and their impact on language dynamics, examining the potential effects of graphic abbreviations on the richness of language, grammatical norms, and cultural context. The widespread use of abbreviations can lead to the violation of language norms and the loss of expressiveness. Furthermore, graphic abbreviations reflect the dynamics of modern forms of communication, demonstrating the simplification of language and the creative approach of young people to language use.

***Rəyçi; professor Məsud Əhməd oğlu Mahmudov***

***SDU-nun Azərbaycan dili və ədəbiyyatı kafedrasının 17 sentyabr 2024-cü il tarixli iclasın12 saylı protokolu***

***Daxil olma tarixi 19 sentyabr 2024-cü il***